# MAL NÜMUNƏLƏRİNİN UÇOTU

*Müəssisələr istehsal etdikləri məhsulların və satdıqları malların tam çeşidlərini potensial alıcılara nümayiş etdirməyə çalışırlar. Bu məqsədlə ticarət vitrinləri mal nümunələri ilə tərtib edilir, nümayiş otaqları açılır və s..*

*Bu halda məsrəflərin mühasibat uçotuna və vergitutma məsələlərinə diqqət yetirək.*

«Reklam haqqında» 15 may 2015-ci il tarixli, 1281-IVQ saylı Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən reklam - reklam istehlakçısının diqqətini reklam obyektinə müxtəlif vasitə və üsullardan istifadə olunmaqla istənilən formada cəlb etmək, marağını formalaşdırmaq və saxlamaq, əmtəəni bazarda tanıtmaq və satışını stimullaşdırmaq məqsədi ilə yayımlanan məlumatdır.

Vitrinlərin, nümunə otaqlarının və nümayiş zallarının tərtibatı satılan mallar (xidmətlər) haqqında informasiyanın yayılması və bu malların (xidmətlərin) satışına kömək edilməsi məqsədini güdür. Buna görə də bu cür məsrəflər müəssisə üçün reklam xərcləri kimi tanınmalıdır.

Reklam xərclərinin mühasibat uçotu müəssisənin fəaliyyət növündən və reklamın xarakterindən asılı olaraq 20, 26, 43 və 44 saylı hesablarda aparıla bilər. Bu hesablar üzrə analitik uçot hər bir reklam xərci üzrə ayrılıqda aparılır.

Reklam xərcləri gəlirin əldə edilməsi ilə birbaşa bağlı olan xərcdir və Vergi Məcəlləsinin 108-ci maddəsinə əsasən gəlirdən çıxılır.

**Misal 1.**

Ticarət təşkilatı 2018-cü ilin yanvarında hər birinin qiyməti 2.360 manat (o cümlədən ƏDV - 360 manat) olmaqla 20 ədəd qadın üçün axşam paltarını sonradan satmaq məqsədi ilə almışdır. Bu paltarlardan birisi nümayiş üçün mağazanın vitrininə qoyulmuşdur. Üç aydan sonra həmin paltar günəş şüalarının təsiri nəticəsində rəngini dəyişmiş (əmtəə xassəsini itirmişdir) və bu səbəbdən uçotdan silinir.

Bu əməliyyatlar ticarət təşkilatının mühasibat uçotunda aşağıdakı yazılışlarla əks etdirilir:

| Mühasibat yazılışı | Məbləğ (man) | Əməliyyatın məzmunu |
|---|---|---|
| Dt 41 «Mallar», «Anbarda olan mallar» subhesabı<br>Kt 60 «Malsatan və podradçıarla hesablaşmalar» | 40.000<br>(2.000x20) | Malsatandan qadın axşam paltarı daxil olmuşdur |
| Dt 19 «Alınmış sərvətlər üzrə ƏDV» Kt 60 «Malsatan və podradçıarla hesablaşmalar» | 7.200<br>(360x20) | Malsatana ödəniləcək ƏDV uçota alınmışdır |
| Dt 60 «Malsatan və podradçılarla hesablaşmalar»<br>Kt 51 «Hesablaşma hesabı» | 47.200 | Malsatanın hesabı ödənilmişdir |
| Dt 68 «Büdcə ilə hesablaşmalar» «ƏDV üzrə hesablaşmalar» subhesabı<br>Kt 19 «Alınmış sərvətlər üzrə ƏDV» | 7.200 | Malsatana ödənilmiş ƏDV büdcə ilə əvəzləşdirilmişdir |
| Dt 41 «Mallar», «Vitrində olan mallar» subhesabı<br>Kt 41 «Mallar», «Anbarda olan mallar» subhesabı | 2.000 | Bir ədəd paltar vitrinin tərtibatı üçün verilmişdir |
| Dt 44 «Tədavül xərcləri», «Reklam xərcləri»<br>Kt 41 «Mallar», «Anbarda olan mallar» subhesabı | 2.000 | Reklam üçün istifadə edilmiş paltarın maya dəyəri silinir |

**Vitrinə qoyulmuş malların güzəştlə satışı**

Vitrində nümunə kimi istifadə olunan mallar, adətən, müəyyən vaxtdan sonra öz istehlak keyfiyyətlərini qismən itirirlər və ticarət təşkilatları belə malları alıcılara güzəştlə satırlar.

**Misal 2.**

Ticarət müəssisəsi 2018-ci ilin may ayında sonradan satmaq məqsədi ilə birinin dəyəri 3.540 manat (o cümlədən ƏDV-

540 manat) olmaqla 10 ədəd mətbəx qarnituru almışdır. Ticarət təşkilatı bu qarniturları 4.720 manata (o cümlədən ƏDV - 720 manat) satır.

Bu qarniturlardan biri nümayiş üçün vitrinə qoyulmuşdur. Bir neçə aydan sonra vitrinə qoyulmuş qarniturun fasadında çatlar əmələ gəlmişdir. 2018-ci ilin dekabrında ticarət təşkilatı həmin qarnituru 20% güzəştli qiymətlə satışa çıxarmışdır.

Ticarət təşkilatında malların uçotu alış qiyməti ilə aparılır.

Bu əməliyyatlar ticarət təşkilatının mühasibat uçotunda aşağıdakı yazılışlarla əks etdirilir:





| Mühasibat yazılışı | Məbləğ | Əməliyyatın məzmunu |
|---|---|---|
| Dt 41 «Mallar», «Anbarda olan mallar» subhesabı<br>Kt 60 «Malsatan və podradçılarla hesablaşmalar» | 30.000<br>(3.000x 10) | Malsatandan mətbəx qarnituru daxil olmuşdur |
| Dt 19 «Alınmış sərvətlər üzrə ƏDV»<br>Kt 60 «Malsatan və podradçılarla hesablaşmalar» | 5.400<br>(540x 10) | Malsatana ödəniləcək ƏDV məbləği əks etdirilir |
| Dt 60 «Malsatan və podradçılarla hesablaşmalar»<br>Kt 51 «Hesablaşma hesabı» | 35.400 | Malsatanın hesabı ödənilmişdir |

**Nümayiş otağının yaradılmasına çəkilən xərclərin uçotu**

Bəzi müəssisələr nümunələr otağı yaradır və satdıqları malları burada nümayiş etdirilər. Bir qayda olaraq, nümunə kimi ayrılan mallar satılmır.

Nümayiş otağının yaradılmasına çəkilən xərclər müəssisə üçün reklam xərcidir. Lakin bu otağın tərtibatı üçün istifadə olunmuş malların dəyərini xərclərə birdəfəyə deyil, həmin malların nümayiş dövrü ərzində silmək lazımdır. Buna görə də nümayiş otağına qoyulmuş malların dəyərini əvvəlcə 31 saylı «Gələcək dövrün xərcləri» hesabında uçota almaq və sonradan nəzərdə tutulan istifadə dövrü ərzində xərclərə silmək lazımdır.

**Misal 3.**

Ticarət təşkilatı 2018-ci ilin mayında nümayiş otağı yaratmışdır. Bura qoyulmuş mal nümunələrini 12 ay ərzində nümayiş etdirmək planlaşdırılır. Nümayiş otağına verilmiş malların ƏDV-siz alış dəyəri 6.000 manatdır.

May ayında ticarət təşkilatının mühasibat uçotunda aşağıdakı yazılışlar edilir:

| Mühasibat yazılışı | Məbləğ | Əməliyyatın məzmunu |
|---|---|---|
| Dt 31 «Gələcək dövrün xərcləri»<br>Kt 41 «Mallar» | 6.000 | Reklam məqsədləri üçün istifadə edilmiş malların maya dəyəri silinir |

2005-ci ilin mayından 2018-ci il mayına kimi hər ay mühasibat uçotunda aşağıdakı yazılış edilir:

| Mühasibat yazılışı | Məbləğ | Əməliyyatın məzmunu |
|---|---|---|
| Dt 44 «Tədavül xərcləri»<br>Kt 31 «Gələcək dövrün xərcləri» | **500 (6.000:12)** | Nümunə otağının tərtibi xərclərinin silinməsi |

**Sınaq nümunələrinin uçotu**

«İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» 19 sentyabr 1995-ci il tarixli, 1113 saylı

Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinə əsasən satıcı (icraçı) istehlakçını maraqlandıran malın (işin, xidmətin) qiyməti, istehlak xassələri (ərzaq malları barəsində isə həm də tərkibi, yararlıq müddəti, kaloriliyi, sağlamlıq üçün zərərli maddələrin normativ sənədlərin tələbləri ilə müqayisəli miqdarı), əldə edilməsi şərtləri, təminat öhdəlikləri və iddiaların irəli sürülməsi, malın işlədilməsi, saxlanılması və təhlükəsiz istifadəsi üsulları və qaydaları barəsində istehlakçıya zəruri və düzgün məlumat verməlidir.

Malların istehlak xassələri ilə alıcıları məlumatlandırmaq üçün istifadə olunan mal nümunələrinin dəyəri aşağıdakı hesablara silinir:

- istehsal müəssisələrində - 43 saylı «Kommersiya xərcləri» hesabına;

- ticarət təşkilatlarında - 44 saylı «Tədavül xərcləri» hesabına.

Bu zaman aşağıdakı mühasibat yazılışları edilir:

| **Mühasibat yazılışı** | **Əməliyyatın məzmunu** |
|---|---|
| Dt 41 «Mallar», «Sınaq nümunəsi kimi istifadə olunan mallar» subhesabı,<br><br>Kt 41 «Mallar», «Anbarda olan mallar» subhesabı | Alıcıları satılan malların xassələri ilə tanış etmək üçün mal nümunələri ticarət zalına verilmişdir |
| Dt 43 «Kommersiya xərcləri» və ya 44 «Tədavül xərcləri»,<br>Kt 41 «Mallar», «Sınaq nümunəsi kimi istifadə olunan mallar» subhesabı, | Mal nümunələrinin alış dəyəri silinir |